

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 19 (23.181)

26 yanvar 2019-cu il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Şərur rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq Şərur rayonunda icbari tibbi sığortanın tətbiqinin təmin olunması, əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin daha da yaxşılaşdırılması məqsədilə **qərara alıram:**

1. Şərur rayonunda icbari tibbi sığorta tətbiq edilsin.

2. Şərur Rayon Mərkəzi və Uşaq xəstəxanalarına publik hüquqi şəxs statusu verilsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

3.1. bu Sərəncamın 2-ci hissəsi ilə yaradılan publik hüquqi şəxslərin Nizamnaməsini təsdiq etsin və icbari tibbi sığortanın həyata keçirilməsi ilə bağlı zəruri tədbirləri görərək 2019-cu il iyunun 1-dən həmin publik hüquqi şəxslərin fəaliyyətlərini təmin etsin;

3.2. icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar Şərur Rayon Mərkəzi və Uşaq xəstəxanalarının işçilərinin aylıq vəzifə maaşlarının 2019-cu il iyunun 1-dən 50 faiz artırılmasını təmin etsin.

4. Bütün mərkəzi icra hakimiyyəti orqanlarına, aidiyyəti dövlət qurumlarına, Şərur Rayon İcra Hakimiyyətinə tapşırılsın ki, bu Sərəncamdan irəli gələn vəzifələrin icrası ilə bağlı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə zəruri köməklik göstərilməsini təmin etsinlər.

5. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi, Səhiyyə Nazirliyi və Vergilər Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 25 yanvar 2019-cu il*

## Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsinin nəticəsində Naxçıvan ötən il də inkişaf və sabitlik ünvanına çevrilib

*Muxtar respublikada bütün sahələr üzrə innovativ yeniliklərin tətbiq olunması, məqsədyönlü islahatların, mühüm infrastruktur layihələrinin, dövlət proqramlarının reallaşdırılması nəticəsində iqtisadi inkişaf ötən il də artan templə davam edib. Cəmiyyətdə ideya və dəyərlər sisteminin formalaşmasına əsaslı təsir göstərən milli-mənəvi və ideoloji dəyərlərimizin yaşadılması, məsələlərin tezliklə həllinə yönəlmiş perspektivli siyasətin aparılması yeni-yeni uğurlara yol açıb, sosial-siyasi və mədəni həyatda mühüm nailiyyətlər əldə olunub. Ötən il həm də Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı və ölkəmizin Gənclər Paytaxtı adını daşımasının qürurunu yaşadıq. Azərbaycan Respublikası Prezidentinin sədri olduğu "Caspian European Club"un 2017-ci və 2018-ci illər üçün ölkənin iqtisadi regionları üzrə hazırladığı investisiya reytinqində Naxçıvan Muxtar Respublikasının ən yüksək ümumi bal toplayaraq birinci yerə çıxması isə sevincimizə sevinc qatdı.*



2018-ci ilin əhəmiyyətli hadisələrindən biri də yanvarın 23-də Heydər Əliyev Muzeyində muxtar respublikanın 2017-ci ilin nəticələrinə görə investisiya reytinqində birinci yerə çıxması ilə bağlı tədbirin keçirilməsi olub. Tədbirdə iştirak edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ölkəmizin və muxtar respublikamızın sürətlə inkişaf etdiyini, inkişafın mərkəzində isə insan amilinin dayandığını vurğulayıb.

Fevralın 9-da – Naxçıvan Muxtar Respublikasının yaranmasının 94-cü ildönümündə Naxçıvan Biznes Mərkəzində Ali Məclisin Sədri muxtar respublikada fəaliyyət göstərən sahibkarlarla görüşü zamanı davamlı iqtisadi yüksəlişə töhfə verən sahibkarlığın inkişafını şərtləndirən mühüm istiqamətləri qeyd edib. Bunlar vergi və gömrük güzəştlərinin, dövlət qeydiyyatında "bir pəncərə" prinsipinin tətbiqi, torpaq mülkiyyətçilərinin torpaq vergisi istisna olmaqla bütün növ vergilərdən azad edilməsi, bu sahədə çalışanlara bir sıra güzəştlərin tətbiq olunması, subsidiyaların verilməsi, ailə təsərrüfatlarının fəaliyyətlərinin dəstəklənməsi və digər mühüm məsələlərdir. Həmin tədbirdə Ali Məclis Sədrinin yeni istehsal və xidmət sahələrinin yaradılması üçün 11 sahibkara güzəştli kreditlərin çeklərini təqdim etməsi isə bu sahənin inkişafının diqqət mərkəzində olduğunu bir daha təsdiq edib.

İran İslam Respublikasının Şərqi və Qərbi Azərbaycan vilayətləri ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında mövcud əlaqələr gündən-günə genişlənir. Yüksək səviyyəli qarşılıqlı səfərlər zamanı əlaqələrin inkişaf perspektivlərinin diqqət mərkəzində saxlanılması isə bir sıra sahələrdə münasibətlərin yüksələn xətt üzrə inkişaf edəcəyinə zəmanət verir. Ötən il aprelin 6-da İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərifin Naxçıvan Muxtar Respublikasına səfəri bu baxımdan əhəmiyyətlidir. Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərif ilə görüşüb, söhbət zamanı qarşılıqlı maraqdoğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Ölkəmizdə və muxtar respublikamızda ilin ən mühüm ictimai-siyasi hadisələrindən biri də aprelin 11-də Azərbaycan Respublikası Prezidenti seçkilərinin keçirilməsi oldu. Müstəqil respublikamızda demokratik seçki sisteminin yaradılması seçkilərin ədalətli və şəffaf şəraitdə keçirilməsinə, mövcud sabitlik və inkişaf isə insanların seçkilərdə fəal iştirakına imkan verib. Aprelin 11-də muxtar respublikamızda 7 seçki dairəsi üzrə 316 seçki məntəqəsində keçirilən seçkilərdə həmin seçki dairələrində qeydə alınmış seçicilərdən 222 min 895 nəfəri, yəni seçicilərin 82,3 faizi seçkilərdə iştirak edib.

Ali Məclisin Sədri ailə üzvləri ilə birlikdə 4 saylı Naxçıvan Şəhər Seçki Dairəsinin Heydər Əliyev adına tam orta məktəbdə yerləşən 4-15 saylı seçki məntəqəsində səs verib. Sonra Ali Məclisin Sədri seçki prosesinin gedişi ilə maraqlanıb.

2018-ci il həm də ulu öndərimiz Heydər Əliyevin 95 illiyinin qeyd olunması ilə yadda qalıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illiyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsinə dair Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" 2018-ci il 16 aprel tarixli Sərəncamına əsasən muxtar respublikamızda silsilə tədbirlər keçirilib.

Mayın 10-da Ali Məclisin Sədri müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoyub, ulu öndərin xatirəsini dərin ehtiramla yad edib. Həmin gün Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilmiş rəsm sərgisinə baxıb.

Ötən il mayın 16-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına növbəti səfəri də ilin ən əlamətdar hadisəsi kimi yadda qalıb. Həmin gün dövlətimizin başçısı bir sıra mühüm əhəmiyyətə malik obyektlərin, eyni zamanda "Şərur şəhər və ətraf kəndlərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinin birinci mərhələsinin açılışında iştirak edib.

Prezident cənab İlham Əliyev muxtar respublikamızda görülən işləri yüksək qiymətləndirərək deyib: ***"Son illər ərzində muxtar respublikada böyük abadlıq-quruculuq işləri görülmüşdür. Naxçıvan Muxtar Respublikası bütün iqtisadi göstəricilərinə görə çox sürətlə inkişaf edən respublikadır. Son 15 il ərzində respublikanın ümumi daxili məhsulu on dəfəyə yaxın artıbdır. Bu, məncə, dünya miqyasında rekord göstəricidir".***

Qürurla deyə bilərik ki, böyük zəhmətlə, vətənpərvərliklə görülən genişmiqyaslı işlər, həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində muxtar respublikamız bu gün mötəbər beynəlxalq tədbirlərin keçirildiyi məkan kimi şöhrət qazanıb. Bu sırada beynəlxalq rəsm festivalları özünəməxsus yerə malikdir. Ötən il 21-24 may tarixlərində Naxçıvan şəhərində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr olunmuş "Naxçıvan – bəşəriyyətin beşiyi" IV Beynəlxalq Rəsm Festivalı keçirilib. Mayın 24-də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda festivalda çəkilmiş əsərlərdən ibarət sərgi açılıb. Ali Məclisin Sədri sərginin açılışında iştirak edib.

Ötən il mayın 28-də Naxçıvan şəhərinin baş meydanında – Heydər Əliyev Muzeyinin qarşısında Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyi münasibətilə tədbir keçirilib. Yubiley tədbirində iştirak edən Ali Məclisin Sədri cümhuriyyətin xalqımızın istiqlal tarixinin şanlı səhifəsi olduğunu, milli hökumətimizin keçdiyi şərəfli yolun gələcək müstəqil dövlətçilik üçün mühüm siyasi və tarixi əsas yaratdığını vurğulayıb.

Naxçıvan qədimliyi, mədəni zənginliyi, mühüm strateji əhəmiyyəti ilə yanaşı, həm də inkişaf, sabitlik, mədəniyyətlərarası dialoq məkanı, informasiya mərkəzi kimi də şöhrət qazanıb. Doğma diyarımızda islami dəyərlərin dünyəviliklə vəhdətdə inkişaf etdirilməsi nəticəsində İslama münasibətin elmi və mədəni yanaşmaya əsaslanan Naxçıvan modeli formalaşıb. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı olması tolerantlığın, multikulturalizmin harmoniyasından yaranan və İslama yüksək münasibəti özündə əks etdirən Naxçıvan modelinin dünyaya təqdim edilməsinə geniş imkanlar açıb. Ötən il iyunun 20-də Naxçıvan Dövlət Musiqili Dram Teatrında "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in açılış tədbirində bu məqamlar xüsusilə qeyd olunub.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin sədri cənab Vasif Talıbov Naxçıvan şəhərində əlamətdar tarixi günlərin yaşandığını bildirib, "İslam Mədəniyyətinin Paytaxtı Naxçıvan – 2018" tədbirlərini açıq elan edib.

Ötən ilin may ayında Əlahiddə Ümumqoşun Ordunun ön xəttin dövlət sərhədi boyu 26 kilometr məsafəni əhatə edən əməliyyatı nəticəsində 7 kilometrədək dərinlikdə mühüm əhəmiyyətə malik hakim yüksəklikləri ələ keçirməsi, Şərur rayonunun işğal altındakı Günnüt kəndini azad etməsi və nəticədə, düşmənin yaşayış məntəqələrinə və mühüm strateji yollara tam nəzarəti ələ alması onun qüdrətinin növbəti göstəricisidir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev bu mühüm hadisəni "Uğurlu Naxçıvan əməliyyatı" adlandırıb.

Ötən il iyulun 3-də Ali Məclisin Sədri Günnüt kəndindəki hərbi hissədə olub, burada xidmət keçən əsgər və zabitlərlə görüşüb. Muxtar respublika rəhbəri mövqelərdə xidmətin təşkili ilə maraqlanıb, Günnüt əməliyyatında iştirak edən əsgər və zabitlərə hədiyyələr təqdim edib.

Naxçıvan Muxtar Respublikasının sürətli sosial-iqtisadi inkişafı 2018-ci ilin birinci yarısında da davam edib. Məhz bunun nəticəsidir ki, birinci yarımildə ümumi daxili məhsul istehsalı 2017-ci ilin müvafiq dövrünə nisbətən 1,4 faiz artaraq 1 milyard 246 milyon manatdan çox olub. İstehsal olunan sənaye məhsulunun 96 faizə yaxınının qeyri-dövlət sektorunun payına düşməsi sahibkarlığa göstərilən yüksək dövlət qayğısının təzahürüdür. Ötən ilin altı ayı ərzində 1364 yeni iş yerinin açılması, bunun da 98,3 faizinin daimi iş yerlərinin olması əhalinin məşğulluğunun artırılması və sosial rifah səviyyəsinin yüksəldilməsi istiqamətində görülən işlərin tərkib hissəsidir.

*Ardı 2-ci səhifədə*

Muxtar respublikanın inkişafının yüksələn xətt üzrə davam etdiyini göstərən bu və digər əhəmiyyətli faktlar 2018-ci il iyulun 14-də beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasında da qeyd olunub.

Kəskin kontinental iqlimə malik olan Naxçıvanda payız-qış mövsümünə hazırlıq daim diqqət mərkəzində saxlanılır. Ötən il avqustun 4-də Naxçıvan Muxtar Respublikasında 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən müşavirədə Ali Məclis Sədrinin qarşıya qoyduğu vəzifələrin icrasının nəticəsidir ki, soyuq qış günlərində də Naxçıvanın bütün yaşayış məntəqələri fasiləsiz olaraq elektrik enerjisi və təbii qazla təchiz edilir.

Bu gün sabitliyin və əmin-amanlığın hökm sürdüyü muxtar respublikamız özünün sosial-iqtisadi inkişafı, abadlığı ilə hər kəsin diqqətini cəlb edir. Multikultural dəyərlərin yaşadıldığı Naxçıvan artıq dünyanın mütərəqqi təşkilatlarının tədbirlərinə ev sahibliyi edir, Şərqlə Qərb arasında müxtəlif əməkdaşlıq əlaqələrinin inkişafında mühüm körpüyə çevrilir. Ötən ilin sentyabrında Avropa İttifaqının üzvü olan dövlətlərin diplomatik nümayəndələrinin iştirakı ilə İslam Mədəniyyətinin Paytaxtı olan Naxçıvanda "Avropa günləri"nin keçirilməsi bu qədim diyarın Qərb üçün də əhəmiyyətini bir daha ortaya qoyub.

Sentyabrın 23-də "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində "Avropa şəhərciyi"nin açılış tədbiri keçirilib. Ali Məclisin Sədri tədbirdə iştirak edib, nümayiş olunan sərgilərə baxıb.

Muxtar respublikada müxtəlif istiqamətlər üzrə festivalların təşkili davamlı xarakter alıb. Bunlardan ötən il oktyabrın 20-də "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən üçüncü "Arıçılıq məhsulları – bal festivalı" və noyabrın 10-da "Ailə təsərrüfatı məhsulları" festivalı böyük maraqla qarşılanıb. Ali Məclisin Sədri hər iki festivalda iştirak edib, arıçılığın və ailə təsərrüfatlarının inkişafına bundan sonra da dəstək göstərilməsinin vacibliyini bildirib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2018-ci il fevralın 16-da "Babək rayonunun təşkil olunmasının 40 illiyi haqqında" Sərəncam imzalayıb. Bununla bağlı təsdiq olunmuş Tədbirlər Planına əsasən rayonda geniş quruculuq işləri aparılıb, Babək qəsəbəsində dövlət qurumları və ictimai təşkilatlar üçün inzibati bina əsaslı şəkildə yenidən qurulub. Oktyabrın 22-də Babək Rayon Mədəniyyət Evində rayonun 40 illik yubileyi ilə əlaqədar tədbir keçirilib. Ali Məclisin Sədri həmin tədbirdə iştirak edib.

Qədim sivilizasiyanın məskəni olan, bu gün bütün sahələrdə inkişaf edərək Türk dünyasının elm, mədəniyyət və maarifçilik mərkəzinə çevrilən Naxçıvan 2018-ci il noyabrın 26-da daha bir ilkə imza atıb – həmin gün Naxçıvan şəhərində Türk Şurası Gənc Liderlərinin ilk forumu keçirilib. Forumun açılışında iştirak edən Ali Məclisin Sədri 2009-cu ildə Türkdilli ölkələrin dövlət başçılarının doqquzuncu zirvə görüşünün, noyabrın 26-da isə Türk Şurası Gənc Liderlərinin ilk forumunun Naxçıvanda keçirilməsinin mərkəz kimi Naxçıvanın əhəmiyyətini daha da artırdığını vurğulayıb.

Muxtar respublikada müasir idman infrastrukturunun mövcudluğu gənclərin sağlamlığının qorunmasında, onların asudə vaxtlarının səmərəli təşkilində və istedadlı gənclərin üzə çıxarılmasında mühüm rol oynayır. Yaradılan şərait, göstərilən diqqət və qayğı nəticəsində hazırda muxtar respublikada bütün yaş qrupları üzrə bədən tərbiyəsi və idmanla məşğul olan yeniyetmə və gənclərin sayı günü-gündən artmaqdadır. Ötən il dekabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" müşavirə də uşaqların, yeniyetmələrin və gənclərin sağlamlığının qorunması və idmanın inkişafı üçün vacib məsələlərin gündəmə gətirilməsi ilə yadda qalıb.

Ötən il Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı missiyasını uğurla başa çatdırdı. Bununla qədim diyarımız İslam mədəniyyətinə, həmçinin bəşər sivilizasiyasına yeni töhfələr bəxş etdi. Dekabrın 15-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018"in bağlanış tədbiri keçirilib.

Muxtar respublikamızda diqqət və qayğı ilə əhatə olunmuş müharibə əlilləri, şəhid ailələri mənzillə təmin edilir, onlara minik avtomobilləri verilir, müalicələrinə kömək göstərilir. Dekabrın 20-də Şərur rayonunda sağlamlıq imkanları məhdud 2 Azərbaycan Vətən Müharibəsi iştirakçısına, Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında iştirak edən 1 nəfərə və 1 hərbi xidmət dövrü əlilinə mənzilin təqdim olunması, 1 Çernobıl əlilinə isə "NAZ Lifan 320" markalı minik avtomobilinin verilməsi də bunun bariz nümunəsidir.

Ulu öndərimiz Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsinin nəticəsidir ki, ötən il də inkişaf və sabitlik ünvanına çevrilən, Naxçıvanın sosial-iqtisadi və ictimai-mədəni həyatında əlamətdar hadisələrlə yadda qalıb. Naxçıvanda bütün sahələrdə inkişaf təmin olunub. Təsadüfi deyil ki, 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2018-ci ilin ötən dövründə ümumi daxili məhsulun həcmi 1,2 faiz artaraq 2 milyard 422 milyon manata yaxın olub. Ümumi daxili məhsulun 57 faizdən çoxu istehsalın payına düşüb ki, bu da davamlı və tarazlı inkişafın əsas göstəricisidir.

Ötən il dekabrın 27-də beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin doqquzuncu sessiyasında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları ilə əlaqədar məruzəsində bu faktları qeyd edən Ali Məclisin Sədri deyib: ***"Heç şübhəsiz ki, bu uğura dövlət başçısının göstərdiyi böyük diqqət və qayğı, eləcə də ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında davam və inkişaf etdirilən Heydər Əliyev siyasi xətti və çəkilən zəhmət sayəsində nail olunmuşdur".***

*Bəli, muxtar respublikamız bütün bu uğurlara Heydər Əliyev dövlətçilik məktəbinin Naxçıvan modelinin tərkib hissəsi olan inkişaf konsepsiyasının qətiyyətlə həyata keçirilməsi sayəsində nail olub. Yeniləşməyə və tərəqqiyə doğru hərəkatın başlıca hərəkətverici qüvvəsi isə həm də Vətən sevgisi, elə-obaya sıx bağlılıq, yüksək tələbkarlıq, prinsipiallıq, yorulmaz fəaliyyət, əqidə bütövlüyüdür. Muxtar respublikada sabitliyin, əmin-amanlığın, birliyin təmin edilməsi, milli inkişaf potensialının hərəkətə gətirilməsi, bu potensialdan səmərəli istifadə olunması nəticəsində ötən 24 il Naxçıvanın şanlı tarixinə qızıl hərflərlə yazılıb. Bu tarixdə 2018-ci ilin xüsusi yeri vardır.*

**Rauf KƏNGƏRLİ**

## Yeni Azərbaycan Partiyası rayon təşkilatlarının şura iclasları keçirilib



Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının şura iclasında 2018-ci ildə görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə edilib. Tədbiri təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Arif Qasımov açaraq bildirib ki, 2018-ci ildə 4 şura, 12 İdarə Heyəti iclasları keçirilib. İclaslarda, əsasən, müəyyən zəruri məsələlər, partiya sıralarına yeni üzvlərin qəbulu müzakirə edilib, təşkilat sədrlərinin hesabatları dinlənilib, qərarlar qəbul olunub və onların icrası diqqətdə saxlanılıb.

O, Yeni Azərbaycan Partiyasının xalqımızın və ölkəmizin həyatında mühüm rolu olduğunu, yarandığı gündən bu günə kimi siyasi mübarizələrlə dolu şərəfli bir yol keçdiyini bildirib. Vurğulanıb ki, partiyanın həyata keçirdiyi uğurlu siyasət nəticəsində ölkəmiz mütərəqqi bir dövlətə çevrilib, xalqımız daha firavan həyata qovuşub.

Qeyd edilib ki, Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatı partiya sıralarının genişləndirilməsi üçün məqsədyönlü tədbirlər həyata keçirib. Bəhs edilən dövrdə rayonda partiya üzvlərinin ümumi sayı 1530 nəfərə çatıb. 2018-ci ildə təşkilat öz işini partiyanın Proqram və Nizamnaməsinin tələblərinə uyğun qurmağa səy göstərərək rayonun ictimai-siyasi həyatında fəal iştirak edib. Bu dövr ərzində əlamətdar və tarixi günlərlə əlaqədar tədbirlərin keçirilməsinə diqqət artırılıb.

Rayonun ictimai həyatında partiya üzvləri mütəşəkkillik göstəriblər. Partiya sıralarına qəbulun daim diqqətdə saxlanıldığını nəzərə çatdıran Arif Qasımov vurğulayıb ki, məqsəd gənclər arasında ideyasiyasi işi gücləndirməklə nümunəvi və bacarıqlı gənclərin partiya sıralarına daha aktiv cəlbinə nail olmaqdır. İlk partiya təşkilatlarının fəaliyyəti daim diqqətdə saxlanılır, bu məqsədlə təşkilatın İdarə Heyəti və şura üzvləri yerlərdə olur, ilk partiya təşkilatlarının sədrləri, partiya fəalları ilə görüşür, söhbətlər aparırlar. Rayonda tikilən kənd mərkəzlərində partiyanın ərazi ilk təşkilatları üçün hər cür şəraiti olan iş otaqlarının ayrılması bu təşkilatların aktiv fəaliyyətinə geniş imkanlar yaradır.

Yığıncaqda Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatı Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Vüsalə Əliyeva, Heydər Əliyev adına Gənclər Birliyinin sədri Polad Rzazadə, Yeni Azərbaycan Partiyası Sədərək kənd ərazi ilk partiya təşkilatının sədri Əjdər Məmmədhəsənov və Qaraağac kənd ərazi ilk partiya təşkilatının sədri Ayaz Əliyev çıxış ediblər.

**Sərxan İSMAYILOV**



Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatında keçirilən şura iclasında təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Rizvan Məmmədov bildirib ki, ötən il ölkəmizin ictimai-siyasi həyatında zəngin hadisələrlə yaddaşlarda qaldı. 2018-ci il fevral ayının 8-də Yeni Azərbaycan Partiyasının VI qurultayında partiyanın Sədri cənab İlham Əliyevin Azərbaycan Respublikasının prezidentliyinə namizədliyinin yekdilliklə irəli sürülməsi, 11 aprel 2018-ci ildə keçirilən prezident seçkilərində isə növbəti dəfə dövlət başçısı seçilməsi Yeni Azərbaycan Partiyasının böyük siyasi qələbəsi oldu.

Qeyd olunub ki, rayon partiya təşkilatı 45 ərazi ilk partiya təşkilatında 3639 nəfər partiya üzvünü birləşdirir. Onların 1460-ı qadın, 1749-u gənclərdir. Partiya sıralarına qəbulda keyfiyyət göstəricilərinə daha çox diqqət yetirilib, gənclərin, qadınların, ali təhsilli mütəxəssislərin partiya sıralarına daxil olmasına üstünlük verilib. 2018-ci ildə partiya fəallarının iştirakı ilə tarixi və əlamətdar günlərlə bağlı tədbirlər keçirilib. Burada əsas diqqət rayon ictimaiyyəti arasında aparılan siyasi-ideoloji işin daha da genişləndirilməsinə yönəldilib.

Vurğulanıb ki, gənclərin təhsili, fiziki-hərbi vətənpərvərlik tərbiyəsi, onlara milli-mənəvi və əxlaqi keyfiyyətlərin aşılanması, ümumilikdə, gənclərin hərtərəfli inkişafı məqsədilə müvafiq təşkilatlarla birgə ötən il müxtəlif idman yarışları, müsabiqələr keçirilib.

Şahbuz Rayon İcra Hakimiyyətinin başçısı, şura üzvü Rəfael Babayev çıxışında bildirib ki, partiyanın rayon təşkilatı fəaliyyətə başladığı gündən rayonun ictimai-siyasi həyatında yaxından iştirak edib, sakinlərin ideyasiyasi cəhətdən maarifləndirilməsi üçün üzərinə düşən vəzifələri yerinə yetirməyə çalışıb. Ümidvarıq ki, Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatı 2019-cu ildə də vətənpərvər gənclərin partiyaya qəbuluna ciddi nəzarət edəcək, ərazi təşkilatlarının daha keyfiyyətli kadrlar hesabına formalaşmasını təmin edəcəkdir. Rayonun ictimai-siyasi həyatında partiyanın Qadınlar Şurasının və Gənclər Birliyinin fəaliyyətləri gücləndiriləcək, partiya üzvləri abadlıq və yaşıllıqların qorunmasında fəallıq göstərəcəklər.

Məruzə ətrafında təşkilatın Gənclər Birliyinin sədri Vüqar Muradov, Qadınlar Şurasının üzvü Gülnar Əlizadə, Gənclər Birliyinin üzvü Aytac Eylazova çıxış ediblər.

Sonda təşkilatın 2019-cu il üçün iş planı təsdiq olunub.

**Hicran ƏLİYEVA**

## Kənd sakinləri ilə maarifləndirici görüş olub

***Babək rayon Cəhri Kənd Mərkəzində "Torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılması istiqamətində görülmüş işlər və qarşıda duran vəzifələr" mövzusunda kənd sakinləri ilə maarifləndirici tədbir keçirilib.***

Tədbirdə Babək Rayon İcra Hakimiyyəti başçısının müavini Nihal Məmmədov və Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin sədr müavini Nəcəfalı Nəcəfalıyev çıxış edərək keçirilən tədbirin mahiyyəti haqqında məlumat veriblər.

Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin Torpaq məsələləri şöbəsinin müdiri İntizar Həziyev çıxışında bildirib ki, hazırda bütün kateqoriyalı torpaqların elektron uçotu, xəritələşməsi və məlumat bankının yaradılması istiqamətində işlər aparılır. Bu sistem muxtar respublika üzrə bir mərkəzdən torpaqların idarə olunması, mühafizəsi və istifadəsi üzrə kompleks tədbirlər həyata keçirməyə imkan yaradacaq.

Tədbirdə komitənin Dövlət Yerquruluşu, Geodeziya Xəritəçəkmə Layihə İnstitutunun direktoru Cəfər Əliyev torpaqların elektron kadastr uçotu informasiya sisteminin yaradılmasının və rəqəmsal xəritələrin tərtib edilməsi üçün ərazilərin plan və xəritələrinin tam, düzgün tərtib olunmasının əhəmiyyətindən danışıb.

Bildirilib ki, muxtar respublikamızda torpaq islahatı aparılarkən mövcud olan torpaq sahələri dövlət, bələdiyyə və xüsusi mülkiyyət növlərinə ayrılaraq əkinəyararlı torpaq sahələrinin əsas hissəsi vətəndaşların mülkiyyətinə verilib. Onlara mülkiyyət hüququnu təsdiq edən sənədlər paylanıb. Bu sənədlərdə vətəndaşlara məxsus torpaq sahələri, döngə nöqtələrinin koordinatları, sahəsi, torpaqların bonitet balı, normativ qiymətləri, qonşu mülkiyyətçilər barədə məlumatlar öz əksini tapıb. Həmin dövrdə bu sahədə mütəxəssislərin çatışmazlığı, müasir elektron taxeometr və GPS alətlərinin muxtar respublikamızda mövcud olmaması nəticəsində ölçü işlərinin aparılması zamanı yanlışlıqlara yol verilib, torpaq sahələrinin faktiki istifadə vəziyyətindəki göstəricilərlə mülkiyyət hüququnu təsdiq edən sənədlərdə mövcud olan məlumatlar arasında uyğunsuzluqlar yaranıb. Məhz bu problemləri aradan qaldırmaq, torpaqlardan düzgün və səmərəli istifadəni təmin etmək məqsədilə 2016-cı il aprelin 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən "Naxçıvan Muxtar Respublikasında torpaq münasibətlərinin tənzimlənməsi sahəsində əlavə tədbirlər haqqında" Fərman imzalanıb.

Fərmanın icrası məqsədilə komitənin Dövlət Yerquruluşu, Geodeziya Xəritəçəkmə Layihə İnstitutunun mütəxəssislərindən ibarət qruplar yaradılıb, təsdiq olunmuş tədbirlər planına uyğun ən müasir geodeziya alətləri ilə planaalma işlərinə başlanılıb. İndiyədək ətraf yaşayış məntəqələri ilə birlikdə Naxçıvan şəhərinin ərazisində, Şərur rayonunun 51 kəndində, Babək rayonunun isə Cəhri kəndi istisna olmaqla, digər ərazi vahidlərində planaalma işləri başa çatdırılıb. Bu gündən etibarən Cəhri kəndində də planaalma işlərinə başlanılır. Hazırda bu işləri həyata keçirmək üçün təcrübəli mütəxəssislərdən, ən yüksək dəqiqlikli alətlərdən istifadə olunur. Bütün bunlarla yanaşı, yerlərdə vətəndaşların və məsul şəxslərin sərhədləri məlum olmayan torpaq sahələrinin döngə nöqtələrinin yeri və həmin ərazinin kimə məxsus olması haqqında verdikləri məlumatların dəqiqliyi də vacib şərtlərdən biridir.

Tədbirin sonunda kənd sakinlərinin sualları cavablandırılıb.

**Pərviz HACILI**

# Oxucu məktubları

## Razılıq

### Polis veteranları ilə işin düzgün qurulması, onlara qayğı təqdirəlayiqdir

*Hörmətli redaksiya!*

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən bütün sosial, mədəni, iqtisadi tədbirlər öz bəhrəsini verir. Bu islahatlar muxtar respublikada ictimai asayişin və təhlükəsizliyin təmin edilməsi, o cümlədən cinayətkarlığa qarşı mübarizə sahəsində də müvəffəqiyyətlə həyata keçirilməkdədir.

Bir ildən artıq müddətdə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində aparılan bir sıra islahatlar qısa zamanda özünü doğruldub və görülən işlər insanlar tərəfindən rəğbətlə qarşılanır. Xüsusilə də muxtar respublika daxili işlər orqanlarının polis veteranları ilə işin düzgün qurulması, onlara qayğı göstərilməsi olduqca təqdirəlayiqdir. Qabiliyyətli, savadlı kadrlar yenidən daxili işlər orqanlarında fəaliyyətə cəlb olunublar. Peşəkar əməkdaşlar daha yüksək vəzifələrə irəli çəkiliblər. Bununla yanaşı, vaxtilə bu sahədə uzun müddət çalışan təcrübəli, dövlətçiliyə sədaqətli insanlara hərtərəfli qayğı göstərilir. Bütün bunlar həm də biz polis veteranlarının xidmətlərinin qiymətləndirilməsinə, cəmiyyətdəki mövqeyimizin yüksəldilməsinə, sosial müdafiəmizin gücləndirilməsinə xidmət edir.

Məlumdur ki, ötən il Daxili İşlər Nazirliyində və bütün rayon polis şöbələrində Veteranlar Şurası yaradılıb. Bu, şübhəsiz ki, uzun illər nazirliyin fəaliyyətində, ictimai asayişin təmin olunmasında, cinayətkarlığa qarşı mübarizədə fəal iştirak edən polis veteranlarının bilik və təcrübələrindən istifadə etməyə, gənc əməkdaşların peşəkarlığının artırılmasına imkan verir. Üzvü olduğum Naxçıvan Şəhər Polis İdarəsinin Veteranlar Şurasında da vətəndaşlarla mədəni və qanuni rəftar daxili işlər orqanlarının hörmət və nüfuzunun yüksəldilməsinə xidmət edir.

Aparılan islahatlar polis əməkdaşlarını öz işlərinə vicdanla və məsuliyyətlə yanaşmağa sövq edir, eyni zamanda vətəndaşlarda qanunlarımızın aliliyinə rəğbət və hörmət hissini daha da artırır. Bütün bunlar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun daxili işlər orqanları əməkdaşlarına böyük diqqət və qayğısının bariz ifadəsidir.

Biz polis veteranları da çalışacağıq ki, muxtar respublikada həyata keçirilən böyük islahatlara öz töhfəmizi verək. Yeni nəslin Vətəninə, xalqına, dövlətinə sədaqətli, yüksək biliklərə, geniş dünyagörüşə malik, qanunun aliliyini müqəddəs bilən insanlar kimi yetişməsində bundan sonra da var-qüvvəmizi əsirgəməyəcəyik.

**Etibar AXUNDOV**
***Naxçıvan Şəhər Polis İdarəsinin Veteranlar Şurasının üzvü***

## Minnətdarlıq

### Ailəmiz yeni mənzilin sevincini yaşayır

*Hörmətli redaksiya!*

Mən 1951-ci ildə Babək rayonunun Cəhri kəndində sadə bir kəndli ailəsində anadan olmuşam. Atam 1941-1945-ci illərdə İkinci Dünya müharibəsində leytenant kimi qulluq edib, birinci qrup əlil kimi evimizə qayıdıb. Anam 10 uşaq böyüdüb tərbiyə etdiyinə görə "Qəhrəman ana" adına layiq görülüb. Özüm beş övlad atasıyam. Onları sürücülük etməklə, halal zəhmətimlə böyütmüşəm. Onu da deyim ki, 1988-ci ildə Ermənistandan məcburi şəkildə çıxarılan azərbaycanlıların köçürülməsində fəal iştirak etmişəm. Bir neçə dəfə sürücüsü olduğum avtobusdakı köçkünlər və mən erməni hücumlarına məruz qalmışıq. Ancaq soydaşlarımızın xilası naminə qorxmaq, çəkinmək barədə heç bir vaxt düşünməmişəm. Bu işi davam etdirməyi özümə borc saymışam. O vaxt erməni caynağından qurtardığım soydaşlarımızın bəziləri ilə görüşərkən bu gün də minnətdarlıqlarını gizlətmirlər. Onda sanki mənə dünyanı bağışlayırlar.

Sonralar könüllülərlə birlikdə döyüşlərdə iştirak etmişəm. 23 oktyabr 1991-ci ildə "N" hərbi hissədə baş gizir kimi xidmətə başlamışam. Ağır yaralandığım üçün 1992-ci ildə tutduğum vəzifədən azad olmuşam. Hazırda 1-ci qrup Azərbaycan Vətən Müharibəsi əliliyəm. Çəkdiyim əziyyət hədər getməyib. 2009-cu ildə dövlətimiz mənə "Slavuta" markalı minik avtomobili təqdim edib. 2019-cu il isə ailəmiz üçün böyük sevinclə başlanan bir il oldu. Babək rayonunun Babək qəsəbəsində tikilmiş yaşayış binasından mənə ikiotaqlı,



tam təmirli, bütün məişət avadanlıqları ilə təmin olunmuş mənzil hədiyyə edildi. Bu, ölkəmizdə insan amilinə verilən böyük dəyərdir. Muxtar respublikamızda belə qayğı ilə əhatə olunan insanlar çoxdur və mən də onlardan biriyəm.

Düşünürəm ki, vətənpərvərlik təkcə silah götürüb Vətəni qorumaqdan ibarət deyildir. Hər kəs öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirərsə, Vətənimiz üçün xeyirli bir övlad olarsa, bu, elə əsl vətənpərvərlikdir. Bizim də ailəlikcə sevincimizin təməlində yüksək vətənpərvərlik hissi və vətəndaşa qayğı amili dayanıb. Ailəmiz adından bizə bu sevinci yaşadan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığımı bildirirəm.

**Qurban MƏMMƏDOV**
***1-ci qrup Azərbaycan Vətən Müharibəsi əlili***

### Şəhid ailələri qayğı və hörmətlə əhatə olunublar

*Hörmətli redaksiya!*

1996-cı ildə oğlum Mehman Tərtər rayonunda gedən döyüşlərdə Vətən torpaqlarının bütövlüyü uğrunda canından keçib. 23 ildir ki, şərəfli, müqəddəs bir ad – şəhid anası adını daşıyıram. Oğlumun yoxluğuna dövlətimiz tərəfindən hərtərəfli qayğı görməyimlə təsəlli tapıram. Bir çox ölkələrdə müharibələr gedir, şəhidlər verilir, amma onların ailələrinə bu cür qayğı ilə yanaşılmır. Muxtar respublika rəhbərinin göstərişi ilə mənzillə də təmin olunmuşam. Əlbəttə ki, heç nə övladımı itirmiş bir ananın dərdinə çarə ola bilməsə də, bu diqqət və qayğı övladımızın yoxluğunda çəkdiyimiz iztirabları azaldır.

Ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi uğrunda öz canını qurban vermiş şəhidlərin ailələrinə, həmçinin müharibə əlillərinə dövlət tərəfindən daim böyük qayğı göstərilir. Azərbaycan dövlətinin öz vətəndaşlarına göstərdiyi diqqət və qayğı bütün cəmiyyətimiz, o cümlədən müharibə əlilləri və şəhid ailələri tərəfindən məmnunluqla qarşılanır. Müharibə veteranlarının, əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həllinə nail olunması, hər cür qayğı ilə əhatə edilməsi bir şəhid anası kimi, məni də qürurlandırır. Dövlətimizin başçısı tərəfindən bu istiqamətdə imzalanan fərman və sərəncamlar çoxsaylı ailələrə böyük sevinc bəxş edir. Bundan başqa, müharibə əlilləri, veteranları və şəhid ailələrinə göstərilən qayğı nümunəvi xarakter daşıyır.

Son günlər atılan addımlar, verilən qərarlar bu faktı bir daha təsdiqləyir. Belə ki, Prezident cənab İlham Əliyev Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olan, illərdir ki, itkin düşdüyü üçün həlak olmuş sayılan hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı fərman imzalayıb. Bu fərmanla müəyyənləşdirilmiş qaydada bütün şəhid ailələri kimi, mən də on bir min manat məbləğində birdəfəlik maddi yardım aldım. Hər addımbaşı qayğı və hörmətlə əhatə olunduğumuza görə həm sərhəd kəndinin sakini, həm də bir şəhid anası kimi dövlətimizə minnətdaram.

**Sona ABBASOVA**
***Sədərək rayonu***

### Gecə reyslərinin açılması Naxçıvana gediş-gəlişi asanlaşdırıb

*Hörmətli redaksiya!*

Bir neçə aydır ki, nəvəm Naxçıvanda hərbi xidmətdədir. Elə onu görmək üçün də buraya gəlməli olmuşam. Sözün düzü, nəvəmin hərbi xidmət yerinin bura olacağını eşidəndə, açığı, bir az narahat oldum. Yol uzaq, mən isə iş-güc adamı. Nə edəcəyimi bilmədim. Əvvəllər sürücü işləmişəm. 80-ci illərdə Şuşadan Naxçıvana tez-tez gələrdim. Füzuli rayonunun Horadiz qəsəbəsindən Ordubada iki saata çatırdıq. İndi isə bu mənfurlar – adamın onlara qonşu belə, deməyə dili gəlmir, vallah, zorla gəlib sahiblənib oturublar dədə-baba torpaqlarımızda, kəsiblər yolumuzu-izimizi. Nə isə, sözümün canı, birinci gəlişim təyyarə ilə, ikincisi isə öz şəxsi maşınımla oldu. İllər öncəki Naxçıvandan əsər-əlamət belə, qalmayıb. Gözəlliklər göz oxşayır, sakinlərin çətinlikləri yox olub. Həmişə səmimi, gülərüz, qonaqpərvər naxçıvanlıların layiq olduqları cənnətə çevrilmiş bir məkanda xoş gün-güzəranları var. Ağcabədidə illər öncə qonşuluğumuzda yaşayan və əslən naxçıvanlı hərbçi ailəsinin qonağı oldum, hərbi hissəyə gedib nəvəmlə görüşdüm.



Naxçıvana növbəti səfərə hazırlaşarkən öyrəndim ki, artıq xərc, həm də vaxt sərf edib təyyarə, ya da şəxsi maşınım ilə gəlməyimə ehtiyac qalmayıb. Artıq Bakı-Naxçıvan marşrutunda gecə reysi fəaliyyətə başlayıb. Avtobuslar hər gün saat 21⁰⁰-da Bakıdan yola düşür, səhər saat 10⁰⁰-da Naxçıvana çatır. Biletin bir istiqamət üzrə qiyməti isə 25 manatdır. Lap yerinə düşən bu xəbərə görə çox sevindim. Keçən həftə həmin avtobusla gəldim və axşam da qayıdacağam. Nə vaxt sərf elədim, nə də əlavə vəsait. Müasir standartlara cavab verən geniş salonlu və rahat oturacaqlı avtobusda yolboyu çay və kofe ilə təmin olunduq. Əvvəllər şəxsi avtomobilimlə gəlib Naxçıvana çatanda axşam düşürdü, nəvəmi görmək üçün səhəri gözləməli olurdum. Beləcə, bir günümü hədər yerə sərf edirdim. Bundan sonra səhər buraya çatıb rahat şəkildə nəvəmi görüb axşam da qayıdacağam.

Onu da qeyd edim ki, gecələr yola çıxmağın müsbət cəhətləri çoxdur. Avtobusda rahat şərait olduğundan yatıb dincələ də bilirsən. Səhəri günü də yorğun olmursan.

Uzaq rayonlardan müəyyən səbəblərə görə Naxçıvana üz tutan bütün valideynlər adından yaradılan bu imkana görə muxtar respublika rəhbərinə öz minnətdarlığımı bildirirəm.

**Əhməd HƏSƏNOV**
***Ağcabədi rayonu***

### Kikboksinq Federasiyasında yığıncaq keçirilib

*Naxçıvan Muxtar Respublikası Kikboksinq Federasiyasının 2018-ci il dekabrın 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" keçirilən müşavirə ilə bağlı yığıncağı olub.*

Tədbiri giriş sözü ilə açan muxtar respublikanın gənclər və idman naziri, Kikboksinq Federasiyasının sədri Azad Cabbarov gündəlikdə duran məsələlərlə bağlı məlumat verib.

Gənclər və İdman Nazirliyinin Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov çıxış edərək ötən il keçirilən yarışlar barədə danışıb.

Yığıncaqda çıxış edən federasiyanın sədri Azad Cabbarov vurğulayıb ki, ölkəmizdə həyata keçirilən uğurlu idman siyasətinin tərkib hissəsi kimi bu gün muxtar respublikamızda gənc idmançılar nəsli yetişib və yüksək nəticəsi olan idmançıların adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na salınıb. Bu gün muxtar respublikamızda idmanın inkişafı sahəsində mühüm işlər görülür, gənclərin fiziki və mənəvi hazırlığı, onların asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır.



Vurğulanıb ki, adıçəkilən müşavirədə verilən tapşırıqlara əsasən federasiyada idmanın bu növünün inkişaf etdirilməsi, gənclərin idmana cəlbi, idman yarışlarının kütləviliyinin artırılması, federasiya daxilində istedadlı gənclərin məlumat bankının yaradılması və hər yarışdan sonra yenilənməsi təmin edilməlidir.

Azad Cabbarov qeyd edib ki, muxtar respublikada uğurla fəaliyyət göstərən idman federasiyalarından biri də 2018-ci ildə yaradılan Naxçıvan Muxtar Respublikası Kikboksinq Federasiyasıdır. Federasiya bu idman növünün muxtar respublikada kütləviliyi, yeniyetmə və gənclərin idman bölmələrinə cəlbi istiqamətində məqsədyönlü iş aparıb, komandalar formalaşdırılıb. Gənclər və İdman Nazirliyi adıçəkilən federasiya ilə birgə idmanın bu sahəsi üzrə kütləviliyin təmin edilməsi məqsədilə çoxsaylı tədbirlər həyata keçirib. Yeni yaranmasına baxmayaraq, federasiya artıq bir neçə beynəlxalq, ölkə və muxtar respublika səviyyəli yarışlarda iştirak edib, idmançıları uğurlu nəticələr göstərərək bu yarışlardan 19 medal qazanıblar. Bundan başqa, idmançıların asudə vaxtlarının səmərəli təşkili məqsədilə Kikboksinq Federasiyası idmançılarının Ağbulaq İstirahət Mərkəzində "Yay məktəbi" təşkil olunub.

Diqqətə çatdırılıb ki, keçirilən yarışlar idmançıların peşəkarlıq səviyyəsinin yüksəlməsinə, yeni idmançıların yetişməsinə səbəb olub. Ötən il ərzində şəhər və rayonları əhatə etməklə 246 idmançı 10 fərqli qrupda idmanın bu növü üzrə keçirilən hazırlıqlarda, təlim-məşq proseslərində iştirak edib.

Federasiya sədri çıxışının sonunda həyata keçirilən tədbirlərin nazirlik və Kikboksinq Federasiyasının birgə və məqsədyönlü fəaliyyətinin nəticəsi olduğunu qeyd edib, dövlət idman siyasəti çərçivəsində qarşıya qoyulan tələb və tapşırıqların layiqincə yerinə yetiriləcəyinə əminliyini bildirib.

Yığıncaqda Tahir Məmmədli yekdilliklə federasiyanın sədr müavini seçilib, federasiyanın 2019-cu il üçün hazırlanan qərar layihəsi təsdiq olunub.

Məşqçi-müəllimlərin fikirləri dinlənildikdən sonra Naxçıvan Muxtar Respublikası Kikboksinq Federasiyasının il ərzində fərqlənən idmançıları mükafatlandırılıb.

Yığıncağa yekun vuran gənclər və idman naziri məşqçi-müəllimlər və idmançılar adından yaradılan şəraitə görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirib.

**Ceyhun MƏMMƏDOV**

Naxçıvan mətbəxi

# Qış yeməkləri

***Şaxtalı-sazaqlı qış fəslində uzun sürən yorğun iş günündən sonra son dərəcə dadlı yeməklərin ətri gələn, isti, rahat evə tələsməkdən gözəl nə ola bilər?! Belə günlərdə qışın sevimli yeməkləri xəstəliklərlə mübarizə üçün mükəmməl çarədir. Biz də bu yeməklərin həm dadına baxmaq, həm də hazırlanma qaydalarını öyrənmək üçün nənələrimizdən birinin isti ocağına üz tuturuq. Yolyoldaşlarımla birlikdə ötən günlərdən söhbət edə-edə xoş ovqatla Şərur rayonunun dağ kəndi Yuxarı Yaycıya çatırıq. Ev yiyəsi Fatma nənə həmişəki kimi gülərüzlə bizi qarşılayır. Evə dəvət edir. Onunla hal-əhval tutur, gəlişimizin məqsədini bildiririk. Dünyagörmüş bu kənd qadını qış aylarında evlərimizdə hazırlanan yeməklər barədə bizə məlumat verir:***



– Elə ki havalar soyudu, ət və undan hazırlanan əsas qış yeməkləri süfrələrimizə gəlir. Həmin yeməklərin hazırlanmasında bol-bol yay tədarüklərindən – qurudulmuş göyərti, şorabalar, mürəbbələrdən istifadə edirik. Qış fəslində bişirilən xörəklər içərisində Şərur rayonunun bir çox kəndlərində "umacaşı" da adlandırılan əriştə istisinin və əriştə aşının xüsusi yeri vardır. Bu yeməyi nazik yayılmış xəmirdən uzunsov olaraq kəsilmiş əriştədən təzə halda bişirir, bəzən də qurudur, yüngül qovurur və lazım gələndə istifadə edirik. Əriştə istisi sulu xörəkdir. Soğanı qovurmanın yağında qızardırıq. Bu zaman bir soğan doğranılır, bir neçə kiçikölçülü soğan isə bütöv şəkildə qazana atılır.

Fatma nənə deyir ki, əriştə aşına dad verən məhsullardan biri də onun içərisinə bütöv şəkildə atılmış soğanlardır. Hələ payızda soğan tədarük olunanda ən balacaları seçilir, əriştə aşı üçün qışa saxlanılır. Maş adlandırılan kiçikölçülü lobya dənələri də ayrıca qaynadılır. Suyu süzülür və yeməyə əlavə olunur. Quru alça, ərik yuyulur, yemək hazır olana yaxın, yəni əriştə qazana tökülməmişdən əvvəl xörəyə vurulur. Qədim yurdumuzun dağlarında əvəlik, ələyəz kimi müalicəvi əhəmiyyəti olan bitkilər bitir. Yazın sonlarında həmin bitkilər yığılıb qurudulur. Payız-qış aylarında soyuqdəymə və başqa xəstəliyi olan adamlar üçün bu bitkilərdən hazırlanan yeməklərin çox böyük müalicəvi təsiri olur. Bu yeməyə də xüsusi dad və ətir verən ələyəzdir.

Nənə deyir ki, ələyəzi qazana salmazdan əvvəl mütləq qaynar suda islatmaq lazımdır. Sonra həmin ələyəzi sudan çıxarıb möhkəm sıxırıq ki, "acı suyu" çıxsın. Fatma nənə bir məsləhət də verir: o bildirir ki, əriştəni təzə-təzə kəsib bişirəndə daha dadlı olur. Bir də ki, kəsilən əriştəni dəstələyəndə bir az unlu saxlayıb yeməyə əlavə edəndə yeməyin suyu qatılaşır. Bu da yeməyin özüllülüyünü, həm də dadını artırır.

Bayaqdan bəri dediklərini xüsusi səliqə-sahmanla, tələsmədən gözümüz qarşısında hazırlayan nənə qazana sonda əriştəni əlavə edərək, yeməyin hazır olduğunu bildirir. Deyir ki, ay qızım, əriştə bişən qablardan bu aşdan qonşulara da pay qoyum. Bizlərdə umacaşı bişiriləndə qonşulara da bu yeməkdən verərlər. Həmin gün evə qonaq gələrsə, bu yemək əzizlənib süfrəyə gətirilər.

Budur, son qaşığa qədər yeyilib cana xoş istilik və rahatlıq yayan dadlı, duzlu umacaşını qurtardıqdan sonra nənənin şirin söhbətini dinləyirik. O, bayram əriştə aşından da danışır:

– Əvvəllər qovurulmuş, qurudulmuş əriştədən bayram aşı bişirmək dəbdə idi. Bu gün də çox evlərdə bu yemək hazırlanır. Düyü yaxşı-yaxşı yuyulduqdan sonra duzlu suda isladılır və su qaynayana qədər islaqda qalır. Su qaynadıldıqdan sonra duz ataraq düyünü qazana tökürük. Düyü suda qaynayan zaman bir neçə dəfə kəfkirlə qarışdırılır. Bir az qaldıqdan sonra qızardılmış əriştə qazana tökülərək bişənə qədər qaynadılır. Düyü və əriştə yumşalıdıqda aşsüzəndən süzülür. Su süzüldükdən sonra aşsüzəndəki düyü yenidən başqa qabın üzərinə qoyulur ki, düyünü buxar vurub "əzməsin" və su tamamilə çəkilsin. Qazana yağ atılaraq odun üstünə qoyulur. Yağ yaxşıca əridikdən sonra qazanın dibinə halqa-halqa doğranmış kartof düzür, üzərinə əvvəlcədən doğranıb duzlanmış soğan qoyur və düyünü tökürük. Düyüyə azacıq sarıkök də vurulur. Qazan dəm almaq üçün yenidən vam odun üzərinə qoyulur. Aşın yaxşı bişməsi üçün qazan odun üstündə bir neçə dəfə fırladılır ki, yaxşıca dəm alsın. Qazana bir qədər su çilədikdə su yumrulanıb cızıltıyla düşürsə, yemək hazırdır. Bişirilərək dəmə qoyulan əriştə aşına qazmaq hazırlayır, tərkibinə bəzən düyü, lobya və ya paxla qatır, zövqdən asılı olaraq qovurma ilə yeyirlər. Aşdan söhbət düşmüşkən qədim bir adəti də xatırlayan nənə söhbətə başlayır:

– Qədimdə küsülüləri barışdırarkən "küsü plovu" bişirilərdi. Qucaqlaşıb barışandan sonra süfrəyə böyük məcməyidə aş gətirilər, hamı eyni qabda plov yeyərdi. Arada təzə barışanlar bir-birinə öz əlləri ilə plov yedizdirərdi. Elə indi də bəzən küsülü olan adamlara ərklə "gəlib aş bişirib sizi barışdıracam", – deyərlər.

Nənə onu da bildirir ki, el arasında əriştə ilə bağlı tapmacaların (Qaşığa minər, ayağını sallar), el deyimlərinin (Özünə umac ova bilmir, özgəsinə əriştə kəsir. Əriştə bəylər aşı, tutmac onun yoldaşı) geniş yayılması bir daha təsdiq edir ki, bu yemək xalqımız tərəfindən daim sevilib.

Fatma nənənin qonağı olan, yaşı 80-i keçmiş Səkinə nənə isə keçmişi xatırlayır. Onun bu şirin söhbətini də oxucularımızla paylaşmağı lazım bildik:

– Noyabr ayının sonunda naxırçılar yüksək dağlıq ərazilərdə yerləşən otlaqlardan enər. Bu da onunla əlaqədardır ki, qışda heyvanlar çəkilərini itirir. Payızın sonları dağların döşündəki çəmənliklərin bol ot-ələfi ilə bəslənən heyvanların kəsilməsi üçün ən yaxşı vaxt sayılır. Beləcə, bu vaxtlar ət ehtiyatı görməyə başlayarıq. Kiçik tikələrə bölünərək pörtlədilən ət, yağda bişirilən qovurma küpələrə (saxsı qablar) və ya tuluqlara yığılar. Keçmişlərdə nar, heyva, qarğıdalı budağı ilə kəsilər və damlarda asılardı, almalar, kartof isə quyularda və xüsusi çuxurlarda saxlanılardı.

Qış dövründə evdə çör-çöplə, əvvəlcədən hazırlanan ocaq yandırılardı. Yanan ocaqdan buxarı xaturladan son dərəcə xoş tüstü çıxardı. Odun yanan yerdə heç kimdə ağciyər xəstəliyi olmazdı. Evlərdə formasından asılı olaraq iki növ ocaqdan – uzun müddət saxlanılan lavaş çörəklər və bəzi yeməklərin hazırlanması üçün yerdə qazılan təndir və buxarı – daşdan hazırlanan və divarın içində hörülən sobadan istifadə edilərdi. Təndirin üzərinə yataq qoyardılar, onun üstündən palaz salıb yatardılar. Belə yatağa "kürsü" deyərdilər. Divarın içində hörülən buxarı sobalarında qazanların zəncirlərdən asılması üçün qarmaqlar olardı. Bir çox yeməkləri uzun müddət bişirmək lazım gəlirdi, ona görə də yaşlı qadınlar bütün gecə onları aramsız bişirərdilər. Ətraflarına uşaqlar yığışar və yuxuya gedənədək nənələrin nağıllarına qulaq asardılar. Kürsünün ətrafında uzun qış gecələrində yemək bişirə-bişirə bir gecəyə bir cüt yun corab da kəsərdik.

Səkinə nənə keçmişdən danışanda yadına qədim Naxçıvan yeməkləri də düşür və onlar haqqında da söhbət açır: – "Qam-qax" adlanan bu yemək acıtmalı xəmirdən olur. Xəmiri oxlovla açır, xəngəl kimi doğrayıb yağda qızardır, üstünə bal, doşab və ya şəkər tozu səpib yeyirlər.

Xəşil də qış fəslində bişirilən dadlı yemək növüdür, – deyən nənə onun da hazırlanma qaydasından danışır. Bunun üçün qaynar suya tədricən un əlavə edərək oxlovla çala-çala (qarışdıraraq) qaynadırdılar. Bu qarışıq qatılaşanda od üstündən götürülür, boşqablara çəkilir, üzərinə şəkər tozu, bal, ərimiş yağ və ya bəkməz tökülərək yeyilir. Xəşil, adətən, səhər yeməyi sayılır.

Naxçıvanda xəmir xörəklərinin ən sadə və geniş yayılmış növlərindən biri də umacdır, – deyə söhbətə qoşulan ev yiyəsi bu yeməkdən də danışır. Umac öz tərkibinə görə üç növdə (adi, südlü, əvəlikli umac) hazırlanır. Südlü umac istisna olmaqla, digər umac növlərinə istiot və nar suyu qatılır, soyuqdəyməsi olanlara tərlətmə vasitəsi kimi verilir.

Umacın hazırlanma qaydası isə belədir: Una duzlu su ilə çalınmış yumurta qatılır və ovulur. Bu zaman xırda xəmir qırıntıları alınır. Yağda qızardılmış soğan suda qaynadılır, xəmir qırıntıları ələkdə silkələnib, artıq undan təmizlənir və qaynar bulyona tökülərək arası kəsilmədən qarışdırılır. Süfrəyə verildikdə umaca nanə səpilir. Bu yeməyin bir çox bişirilmə qaydası var ki, bəzi kəndlərdə ət, qovurma ilə bişirilib içərisinə əvəlik və ya ələyəz vurulur.

Qış xörəklərindən buğlamanı da, daha doğrusu, öz buxarında bişən yeməyi xüsusi qeyd etmək lazımdır. Bu yemək çox yayılan və sevilən qoyun əti, soğan, bibər, alça ilə qat-qat şəkildə düzülərək dəmdə bişirilir...

– Qış gəldimi, xaşın da öz yeri olur, – deyərək kənardan qadınların söhbətini dinləyən Həsən dayı səslənir. Onun sözlərinə qüvvət verən Səkinə nənə xaşın bişirilməsindən danışır və bildirir ki, xaş malın ayaqlarından (dırnaqlarından) hazırlanır. Çox vaxt xaşa kəllə də əlavə olunur. Bunları qazanın içinə qoyub üstünə su tökür, baş soğan atırıq ki, kəf yaxşı yığılsın və kök salırıq ki, suyu şəffaf olsun. Bişirilmənin yarısında soğanı və kökü çıxarırıq. Sona yaxın duz, iri istiot və dəfnə yarpağı əlavə edilir. Bu yemək gecədən ocağa asılır ki, səhərə kimi vam odda bişsin, əti sümükdən ayrılsın. Ət sümükdən ayrılarkən bulyon yağlı qızılı rəngdə olur. Xaşı sirkə-sarımsaqla, nar turşusu, şoraba, göyərti ilə yeyirlər. Bu yemək gücün yığılması və bərpa olunması, ağır iş gününə güc toplamaq istəyənlər üçün ən yaxşı xörəkdir. Bu məqsədlə onu sübh tezdən yemək lazımdır. Bundan başqa, xaşın tərkibində olan maddələr sınıqlar zamanı sümüklərin tez bitişməsinə də kömək edir.

Əvvəllər kənd toylarında gecədən bir neçə qazan xaş asılardı. Səhər tezdən kəndin kişiləri xaşa gələrdilər. Toy məclisinin ən vacib yeməklərindən biri olan xaşın suyunu stəkanlara doldurub məclisə gətirərdilər. Xaşın suyunu bu şəkildə içməyi hər adam bacarmazdı. Belələri çox sağlam sayılardılar.

Xanımların bu şirin söhbətindən bizi ev yiyəsinin səsi ayırır. Fəsəli hazırdı, gəlin bir fəsəlinin də dadına baxın, – deyən Fatma nənə mis siniyə düzülmüş fəsəliləri süfrəyə qoyur. Fəsəlinin hazırlanma qaydasını isə Xədicə nənə danışır:

– Ələnmiş una maya, duz, su vurulub bərk xəmir yoğurulur və gəlməsi üçün 1-2 saat isti yerdə saxlanılır. Sonra xəmir kündələrə bölünür, nazik şəkildə açılır, üzərinə yağ sürtülür 5-6 qat üst-üstə yayılıb üçbucaq formasında kəsilir. Həmin kəsiklər üst-üstə basılaraq yastılanır sonra fəsəli sacda hər iki tərəfi yağlanaraq qızardılır. Üzərinə şəkər tozu səpilib yeyilir. Deyərlər ki, ocaq qalanıb sacda və təndirdə çörək bişirən gün mütləq fəsəli də bişirmək lazımdır. Nənələrimiz onu da deyərdilər ki, belə olanda evin ruzisi də artar, çörəyimiz də bərəkətli olar.

Artıq axşam düşmək üzrədir və biz "Yolçu yolunda gərək", – deyib bu gözəl diyarın şirinsöhbətli, qonaqpərvər insanlarından ayrılmaq istəməsək də, vidalaşıb yola çıxırıq.

*Bu gün istənilən məzə və təamları yaxınlıqdakı supermarketlərdən, kafe, restoranlardan tapsaq da, onlarda evlərimizdə bişirilən yeməklərin dadını tapa bilmərik. Çünki qədim Naxçıvan yeməklərində nənələrimizin əlinin dadı "gizlənib" və onların əzizləyə-əzizləyə bişirdiyi bu yeməklər indi də süfrələrimizin bəzəyidir.*

✍ **Ramiyyə ƏKBƏROVA**

## Bilik yarışı keçirilib



*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2019-cu il 21 yanvar tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş Tədbirlər Planı" təsdiq edilib. Tədbirlər Planına əsasən Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində "Naxçıvanımızı tanıyaq" mövzusunda bilik yarışı keçirilib.*

Yarışdan əvvəl mərkəzin direktoru Murad Babayev çıxış edərək muxtar respublikamızda təhsilə göstərilən diqqət və qayğıdan danışıb. Qeyd edib ki, belə viktorina və yarışların keçirilməsi məktəblilərə vətənpərvərlik hisslərinin aşılanması, istedadlı gənclərin üzə çıxarılması, məktəblilərin asudə vaxtlarının səmərəli təşkili və onların bilik və bacarıqlarının təkmilləşməsi məqsədi daşıyır.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı Rəşad Adıgözəlov və Naxçıvan Şəhər Təhsil Şöbəsinin əməkdaşı Təhminə İbrahimova çıxış edib, iştirakçılara uğurlar arzulayıblar.

Qeyd edək ki, Naxçıvan Şəhər Təhsil Şöbəsi və Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin təşkilatçılığı ilə keçirilən yarışda Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbin "Əcəmi", 2 nömrəli tam orta məktəbin "Batabat", 4 nömrəli tam orta məktəbin "Göygöl" və Heydər Əliyev adına tam orta məktəbin "Buta" komandalarının şagirdləri iştirak ediblər. Yarışda "Buta" komandası qalib gələrək finala vəsiqə qazanıb.

Onu da vurğulayaq ki, 6 mərhələdən ibarət olan yarış ayda bir dəfə olmaqla, Naxçıvan şəhərindəki ümumtəhsil məktəbləri arasında keçiriləcək. Yarış seçim mərhələsi və final formatından ibarətdir. Seçim mərhələsi beş turda 4 komanda və 20 şagirdin iştirakı ilə keçirilir. Ən yaxşı nəticə göstərən 5 komanda final mərhələsində iştirak etmək imkanı qazanır. Viktorinanın seçim mərhələsinin hər turu test, videoçarxlar formatında olmaqla, 5 mərhələ 32 sual, final mərhələsi isə 40 sualdan ibarətdir. Suallar Naxçıvanın tarixi, coğrafiyası, görkəmli şəxsiyyətləri, tarixi-mədəniyyət abidələrinə həsr edilib. Hər sual üzrə düzgün cavab 10 bal intervalında qiymətləndirilir. Təqdim edilmiş hər bir suala təyin olunmuş 10 saniyə vaxt ərzində cavab verən komandanın cavabı etibarlı sayılır. Əgər bir neçə komandanın topladıqları ballar eyni olarsa, suala daha tez cavab verən komanda qalib hesab edilir.

Final mərhələsində I, II, III və həvəsləndirici yerləri tutan qalib komandalar təşkilatçılar tərəfindən diplom, kubok və hədiyyələrlə mükafatlandırılacaqlar.

✍ **Gülcamal TAHİROVA**

**İtmişdir**

Əlizadə Vidadi İbrahim oğlunun adına olan H3-6119824 nömrəli hərbi bilet itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 72